03 (1360) 23-30 yanvar 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# DAVOS GÖRÜŞLƏRİ

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya İqtisadi Forumunda iştirak etmək üçün yanvarın 20-də İsveçrə Konfederasiyasına səfər edib.***

Dövlətimizin başçısı yanvarın 20-də Davosda CGTN (China Global Television Network) telekanalına müsahibə verib.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda "OliverWyman Group" şirkətinin Baş icraçı direktoru Nik Studer ilə görüşüb.

Nik Studer "OliverWyman Group" şirkətinin beynəlxalq strateji idarəedici şirkət olaraq ölkəmizdə müxtəlif qurumlarla mümkün əməkdaşlıq istiqamətlərinə toxunub, Azərbaycanın iqtisadi transformasiya prosesinin, sığorta, maliyyə bazarının müxtəlif istiqamətlərinin inkişafı, enerji sektorunda, o cümlədən ənənəvi və yaşıl enerji sahələrində həyata keçirilən layihələrə, kənd təsərrüfatı məhsullarının ixracına, bölgədə yeni ticarət imkanlarını əhatə etməklə dəyər zəncirinin lokallaşdırılmasına maraq göstərdiklərini qeyd edib. O, Azərbaycanın əldə etdiyi uğurları yüksək qiymətləndirib.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs ilə görüşüb.

Prezident İlham Əliyev görüşün əməkdaşlığımızın perspektivlərinin müzakirəsi baxımından önəmini vurğulayıb.



* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında "The Goldman Sachs Group Inc." şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Kohen ilə görüşüb.

Görüşdə Azərbaycan ilə "The Goldman Sachs Group Inc." şirkəti arasında əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə görüşüb.

Görüşdə Azərbaycanla İraq arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi, birbaşa təyyarə reyslərinin təşkili və hökumətlərarası komissiyanın fəaliyyəti ilə əlaqədar məsələlərə toxunulub. Həmçinin Yaxın Şərqdəki vəziyyət müzakirə edilib, regionda sülhün və sabitliyin bərqərar olunmasının vacibliyi bir daha vurğulanıb.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında "DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaim ilə görüşüb.

Görüşdə "DP World" şirkətlər qrupunun ölkəmizdəki fəaliyyətinin perspektivləri, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin yaratdığı imkanlar barədə müzakirələr aparılıb. Azərbaycanın regional nəqliyyat qovşağı kimi rolu xüsusi vurğulandı, mümkün əməkdaşlıq istiqamətləri müzakirə olunub.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında İraq Kürdüstan Regionunun Baş naziri Məsrur Bərzani ilə görüşüb.

Söhbət zamanı Azərbaycan ilə İraq Kürdüstan Regionu arasında iqtisadi, ticari, mədəni, humanitar əlaqələrin inkişaf etdirilməsi barədə fikir mübadiləsi aparılıb. Biznes dairələrinin qarşılıqlı səfərlərinin təşkilinin, onların arasında birbaşa təmasların yaradılmasının və biznes-forumların keçirilməsinin vacibliyi qeyd olunub.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə görüşüb.

Söhbət zamanı ikitərəfli münasibətlərə, eyni zamanda, Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığının inkişaf etdirilməsi perspektivlərinə dair fikir mübadiləsi aparılıb, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında İsrail Dövlətinin Prezidenti İsxak Hersoq ilə görüşüb.

Görüşdə Azərbaycan ilə İsrail arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi qeyd olunub. Söhbət zamanı iqtisadi-ticari sahədə əməkdaşlığın yaxşı səviyyədə olduğu bildirildi, hökumətlərarası birgə komissiyanın işi yüksək qiymətləndirilib. Azərbaycanlılarla yəhudilər arasında ənənəvi, tarixi dostluq münasibətlərinin mövcud olduğu vurğulanıb, ölkəmizdə digər icmaların nümayəndələri ilə yanaşı, yəhudi icmasının nümayəndələrinin də sülh, əmin-amanlıq və qarşılıqlı anlaşma mühitində yaşamaları üçün hərtərəfli şəraitin yaradıldığı məmnunluqla qeyd edilib.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında "Carlsberg Group" şirkətinin Baş icraçı direktoru Yakob Aarup-Andersen ilə görüşüb.

"Carlsberg Group"un ölkədə istehsal olunan məhsullarının lokallaşdırılma səviyyəsinin artırılması və şirkətin Azərbaycandakı fəaliyyətinin genişləndirilməsi ilə bağlı niyyəti barədə dövlətimizin başçısına məlumat verilib.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda qarşı tərəfin müraciəti əsasında Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşüb.

Söhbət zamanı Azərbaycan ilə Ukrayna arasında siyasi, iqtisadi, humanitar sahələrdə əlaqələr, energetika sahəsində əməkdaşlıq və regional təhlükəsizlik məsələləri müzakirə olunub.

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

Hörmətli cənab Prezident, əziz Qardaşım.

Bolu vilayətinin Kartalkaya dağ-xizək mərkəzinin otelində baş vermiş yanğın nəticəsində çox sayda insanın həlak olması xəbəri bizi olduqca sarsıtdı.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 21 yanvar 2025-ci il**

# Türkiyədəki yanğında ölənlərin sayı 76-ya çatıb



Türkiyənin Bolu vilayətində, Köroğlu dağının zirvəsində yerləşən Kartalkaya xizək mərkəzində baş verən yanğında həyatını itirənlərin sayı 76-ya çatıb.

Bu barədə Türkiyənin daxili işlər naziri Ali Yerlikaya açıqlama verib.

Nazir bildirib ki, hadisə ilə əlaqədar aparılan istintaq çərçivəsində indiyədək 9 nəfər saxlanılıb. Yanğının səbəbi hələ müəyyən edilməyib. Hadisə yerinə Bolu ilə yanaşı, Düzce, Kocaeli, Sakarya, Karabük, Zonquldak, Bartın və Ankaradan yanğınsöndürən, səhiyyə, AFAD, UMKE, jandarm və meşə sahə idarələrinin çox sayda heyət və texnikaları cəlb edilib.

Xatırladaq ki, baş verən yanğınla bağlı Türkiyədə bir günlük matəm elan edilib.

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DONALD TRAMPA



Hörmətli cənab Prezident.

Amerika Birləşmiş Ştatlarının 47-ci Prezidenti kimi fəaliyyətə başlamağınız münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyur, dost Amerika xalqının rifahı naminə qarşıdakı məsul ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Əminəm ki, Sizin gələcək fəaliyyətiniz dünyada sülhün təşviqində, beynəlxalq təhlükəsizliyin gücləndirilməsində önəmli rol oynayacaqdır.

Azərbaycan ilə Birləşmiş Ştatlar özlərinin milli təhlükəsizlik maraqları əsasında qlobal çağırışlara və təhdidlərə, beynəlxalq terrorizmə və onun müxtəlif təzahürlərinə qarşı mübarizədə daim sıx əməkdaşlıq ediblər.

ABŞ-nin müttəfiqlərinin enerji təhlükəsizliyinin təmin olunmasına xidmət edən, enerji sahəsində xoş ənənələrə əsaslanan və möhkəm təməllər üzərində qurulmuş əməkdaşlığımızı yüksək qiymətləndirirəm, ölkəmizin enerji siyasətinə Sizin verdiyiniz daimi dəstəyi xüsusi vurğulamaq istərdim.

Biz həm ənənəvi, həm də yeni əməkdaşlıq sahələri üzrə Birləşmiş Ştatlar ilə fəal və səmərəli birgə işimizi, qarşılıqlı inam və etimada əsaslanan tərəfdaşlığımızı bundan sonra da qətiyyətlə davam etdirmək və Sizinlə bu istiqamətlərdə sıx işləmək niyyətindəyik.

İnanıram ki, Sizin yeni prezidentliyiniz dövründə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında dostluq və əməkdaşlıq münasibətləri daha da möhkəmlənəcək və yeni məzmun kəsb edəcəkdir.

Bir daha Sizi ürəkdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Amerika xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

***Hörmətlə,***

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 21 yanvar 2025-ci il**

# Qanlı 20 Yanvar faciəsindən 35 il keçir






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad edib.

* * * *

Qanlı 20 Yanvar faciəsindən 35 il keçir. Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olan 20 Yanvar hadisələri milli müstəqillik, azadlıq uğrunda mübarizənin və yenilməz iradənin rəmzinə çevrilib. Keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 35 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin qanlı gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar.

Keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən təcavüzkar Ermənistanın açıq-aşkar dəstəklənməsinə və respublikanın ozamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciə, günahsız insanların həlak olması ilə nəticələndi.

Həmin vaxt Moskvada yaşayan Ümummilli Liderimiz Heydər Əliyev həyatını təhlükə altında qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gəldi, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da Ulu Öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanın rəhbərliyinə qayıtdıqdan sonra - 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi.

Bu gün Azərbaycan xalqı 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir. Vətənimizin azadlığı uğrunda mübarizədə canlarından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, doğmaları da hər zaman dövlət qayğısı ilə əhatə olunub. 20 Yanvar şəhidlərinin ailə üzvlərinin və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilir. Əminliklə deyə bilərik ki, Ulu Öndər Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş bütün şəhidlərin ruhları bu gün şaddır. Çünki 2020-ci ildə Azərbaycan Ordusu xalqımızın 30 illik həsrətinə son qoydu, torpaqlarımızı erməni işğalından azad etdi. 2023-cü ilin sentyabrında həyata keçirilən uğurlu antiterror tədbirləri nəticəsində isə suverenliyimiz tam bərpa olundu. İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq işləri sürətlə davam edir, Böyük Qayıdış Proqramı uğurla icra olunur.

Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması bütün şəhidlərimizin, o cümlədən 20 Yanvar faciəsi qurbanlarının qanının yerdə qalmadığının sübutudur.

# 20 Yanvar: Azərbaycan xalqının azadlıq və müstəqillik uğrunda mübarizəsində qəhrəmanlıq dastanı




Azərbaycan xalqına qarşı törədilmiş 20 Yanvar faciəsindən artıq 35 il ötür. Tarixə "Qanlı Yanvar" kimi həkk olunmuş bu hadisə xalqımızın azadlıq arzusunu və istəyini boğmaq məqsədilə həyata keçirilmiş ən ağır cinayətlərdən biridir. Bu faciə Azərbaycan xalqının yaddaşına həm kədər, həm də qürur günü kimi həkk olunub. Qanlı Yanvar qətliamı, eyni zamanda, Azərbaycanın müstəqillik yolunda dönməz qərarının ifadəsi idi. Şəhidlərimizin qanı ilə yazılan bu tarix,xalqımızın azadlıq mübarizəsinin simvoluna çevrildi.

20 Yanvar və Azərbaycan tarixində daha əvvəl baş vermiş digər faciəli hadisələr XX əsr boyunca xalqımıza qarşı aparılan məqsədyönlü siyasətin bir parçası idi. Sovet rejiminin himayəsi ilə Qarabağda alovlanan separatizm, azərbaycanlıların Ermənistandakı ata-baba torpaqlarından zorla çıxarılması və xalqımıza qarşı törədilən soyqırımları bu siyasətin tərkib hissəsi olub.

Sovet İttifaqı Kommunist Partiyasının baş katibi Mixail Qorbaçovun göstərişi ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşunları 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridildi. Dinc əhaliyə silahlı təcavüz nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin cinayətkar mahiyyətini bir daha dünyaya nümayiş etdirdi. Sovet qoşunlarının Bakıya daxil olması xüsusi qəddarlıq və misilsiz vəhşiliklə müşayiət olunurdu. Hələ fövqəladə vəziyyət elan edilməmişdən əvvəl 82 dinc insan qətlə yetirilmiş, 20 nəfər ağır yaralanmışdı. Məhz bu, rejimin xalqın azadlıq istəyini qana qərq etmək üçün heç bir insani dəyərlərə məhəl qoymadığını sübuta yetirdi.

Həmin gecə Sovet rəhbərliyinin əmri ilə Azərbaycan xalqına qarşı düşmənçilik hissləri ilə silahlanmış 65 minlik hərbi qüvvə, xüsusilə erməni mənşəli əsgər və zabitlər heç bir xəbərdarlıq edilmədən beş istiqamətdən şəhərə daxil oldular. Tanklar və zirehli maşınlar qarşılarına çıxan avtomobilləri, insanları əzib keçir, fərqinə varmadan hər kəsi atəşə tuturdular. Yanvarın 20-də və sonrakı bir neçə gündə Bakıda, Neftçala və Lənkəranda ümumilikdə 147 nəfər qətlə yetirildi, 744 nəfər yaralandı, 800-dən çox insan həbs olundu.

Faciənin miqyası ilə bağlı beynəlxalq hüquq-müdafiə təşkilatı "Şit" ekspertlərinin hesabatında qeyd edilirdi: "Adamları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələmişlər. Məsələn, Y.Meyeroviçə 21, D.Xanməmmədova 10-dan çox, R.Rüstəmova 23 güllə vurulmuşdu. Xəstəxanalar, "təcili yardım" maşınları atəşə tutulmuş, həkimlər öldürülmüşdür; adamlar süngü-bıçaqla qətlə yetirilmişdir. Onların arasında hər iki gözü tutulmuş B.Yefimtsev də var; "Kalaşnikov" avtomatının ağırlıq mərkəzi dəyişən 5,45 çaplı güllələrindən istifadə edilmişdir".

20 Yanvar Azərbaycan tarixinə həm faciə, həm də qəhrəmanlıq dastanı kimi yazılıb. Şəhidlərin dəfn mərasimindəki izdiham xalqımızın yaşadığı dərin kədəri, eyni zamanda, onun milli birliyini, bir amal uğrunda necə sıx birləşdiyini bütün dünyaya göstərdi.

Xalqımızın azadlıq və zəfər yolunun təməli məhz 20 Yanvar gecəsində qoyuldu. Bu müddət ərzində Azərbaycan misilsiz inkişaf yolu keçərək həm regionda, həm də dünyada nüfuzlu bir dövlətə çevrildi. Müstəqilliyimiz isə əbədi və dönməz bir xarakter aldı. Zaman keçsə də, dəyişməyən tək şey xalqımızın şəhidlərə göstərdiyi hörmət və ehtiramdır.

# "Nobel mükafatı Qorbaçov kimi cəlladlar üçün alibiyə çevrilməməlidir"



Azərbaycanın vətəndaş cəmiyyətinin təmsilçiləri, ictimai fəallar, 20 Yanvar şəhidlərinin ailə üzvləri və veteranlar Norveç Nobel Komitəsinin sədrinə Qorbaçovun Nobel Sülh mükafatından məhrum edilməsi barədə açıq məktub ünvanlayıb.

Nobel mükafatı üzrə tədqiqatçı, fəlsəfə üzrə fəlsəfə doktoru Etibar Əliyev müraciətlə bağlı "AzPolitika"-ya açıqlamasında bildirib ki, Nobel mükafatları fizika, kimya, fiziologiya və tibb, ədəbiyyat, iqtisadiyyat və sülh sahələri üzrə verilir. O, xatırladır ki, Sülh üzrə Nobel mükafatı Norveç parlamentində - Stortinqdə təqdim olunur: "Mükafatın verilməsində digər sahələrə nisbətən narazılıqlar çoxdur. Nobelin məşhur vəsiyyəti bir neçə dəfə pozulub. Məsələn, mükafatın ölümündən sonra bir şəxsə 2 dəfə verilməsi və İqtisadiyyat üzrə Nobel mükafatının verilməsi nəzərdə tutulmurdu. Lakin qeyd etdiyim bu 3 istiqamətdə vəsiyyətə əməl olunmadı. Mükafatın geri alınması da nəzərdə tutulmayıb. Lakin zaman ötdükcə bu prosedurun işə düşməsi vacibdir. Bəli, Qorbaçov 20 Yanvar faciəsinin baiskarıdır. Tarixdə



başqa nümunələr də var. 2001-ci ildə Ədəbiyyat üzrə Nobel mükafatına layiq görülmüş Vidyahard Naypol bütün əsərlərində İslam dinini təhqir edir. İslam Əməkdaşlıq Təşkilatı bir neçə dəfə ondan mükafatın geri alınması barədə müraciət edib. Lakin nəticə yoxdur. Başqa bir nümunəni deyim. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 2019-cu ildə Peter Handkeyə Nobel mükafatının verilməsini sərt tənqid etmişdi: ***"Nobel ədəbiyyat mükafatının dekabrın 10-da – İnsan Haqları Günündə Bosniyada qətliamı inkar edən, hərbi cinayətkarları müdafiə edən irqçiyə verilməsinin insan haqları pozuntularını mükafatlandırmaqdan başqa adı yoxdur". Peter Handke 2005-ci ildə Haaqa həbsxanasında Miloşeviçlə görüşəndən sonra ona qarşı irəli sürülmüş ittihamların saxta olduğunu bəyan etmişdi".***

E.Əliyev xatırladıb ki, Portuqaliya yazıçısı, 1998-ci ildə Ədəbiyyat üzrə Nobel mükafatına layiq görülmüş Saramaqo "İususun İncili" (1991) romanını yazıb. Onun sözlərinə görə, müəllif bu romanda İsanı ənənəvi xristian peyğəmbərindən daha çox Yer üzündə ədalətsizliyə son qoyan radikal inqilabçı kimi canlandırmışdı: ***"Roma Katolik Kilsəsi "tarixi həqiqəti ələ salan və Əhdi-Cədidin əsas personajlarının xarakterlərini təhrif edən bu mürtəd" kitabın əleyhinə çıxsa da, Saramaqonun romanı 25 dilə çevrilmiş, təkcə Portuqaliyada iyirmi dəfədən çox çap olunmuşdu. Bütün bu faktlar onu göstərir ki, mükafatın geri alınma mexanizmi də işə düşməlidir".***

Etibar Əliyev sonda vurğulayıb ki, Nobel mükafatı Qorbaçov kimi cəlladlar üçün alibiyə çevrilməməlidir.

**Mənbə: AzPolitika.info**

# "AzerGold" QSC-də 20 Yanvar hadisələrinin 35-ci ildönümünə həsr olunmuş tədbir keçirilib

***"AzerGold" QSC-də müstəqil Azərbaycan tarixinin qəhrəmanlıq səhifələrindən biri olan 20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.***




Tədbirdə "AzerGold" QSC və onun törəmə cəmiyyəti "Daşkəsən Dəmir Filiz" MMC-nin rəhbərliyi və kollektivi, həmçinin 20 Yanvar şəhidlərinin və əlillərinin Vətən müharibəsində iştirak etmiş övladları iştirak ediblər.

Tədbirdə 35 il öncə Bakıda insanlığa qarşı ən ağır cinayətlərdən birinin törədildiyi, qanlı faciənin həyata keçirilməsində əsas məqsədin ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlıq siyasəti ilə üzləşdiyimiz illərdə bu haqsızlığa etiraz edən xalqımızı susdurmaq, demokratiya və milli azadlıq uğrunda mübarizədən çəkindirmək olduğu diqqətə çatdırılıb. Lakin 20 Yanvar hadisələrinin mərd, mübariz Azərbaycan xalqının müstəqillik arzusunu, dəmir iradəsini daha da möhkəmləndirdiyi, Sovet İttifaqının dağılması şəraitində ölkəmizin yenidən öz müstəqilliyinə qovuşduğu və bu müstəqilliyi qorumaq üçün xalqımızın təkidli çağırışı ilə Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıtdığı qeyd olunub. 20 Yanvar şəhidlərinin başlatdığı bu mübarizənin atadan oğula miras keçərək, Ulu Öndərin layiqli davamçısı cənab Prezident İlham Əliyevin liderliyi ilə 44 günlük Vətən müharibəsi zamanı Ordumuzun qələbəsi ilə tamamlandığı, düşmən üzərində parlaq zəfərin əldə edilməsində Silahlı Qüvvələrimizin sıralarında döyüşən qanlı Yanvar faciəsinin qurbanlarının övladlarının da payının olduğu vurğulanıb. Bildirilib ki, onların talelərinə ataları kimi düşmənlə mübarizədə qəhrəmanlıq göstərmək, öz atalarının qisasını torpaqlarımıza göz dikənlərdən almaq yazılıb.

Daha sonra çıxış edən 20 Yanvar şəhidlərinin Vətən müharibəsində iştirak etmiş övladları qanlı faciə barədə təəssüratlarını və Vətən müharibəsində keçdikləri döyüş yolu haqqında xatirələrini bölüşüblər. Xalqımızın cənab Prezident İlham Əliyevin liderliyi ilə ərazi bütövlüyünü və dövlət suverenliyini tam bərpa etdiyini qürurla qeyd edən müharibə iştirakçıları 20 Yanvar hadisələri ilə başlanan azadlıq, müstəqillik mübarizəsinin düşmən üzərində döyüş meydanında əldə edilmiş parlaq zəfərlə öz məntiqi nəticəsinə çatdığını tədbir iştirakçılarının diqqətinə çatdırıblar.

Tədbir 20 Yanvar hadisələrindən bəhs edən bədii-sənədli filmin nümayişi ilə başa çatıb.

# Peşəkar jurnalist, əziz dost

***Bu günlərdə müasir Azərbaycan mediasının tanınmış simalarından olan Əməkdar jurnalist, yazıçı-publisist Vasif Səmədovun yubileyini qeyd edirik. Yaşasaydı, 75 yaşı tamam olacaqdı.***

Azərbaycanın Əməkdar jurnalisti, Beynəlxalq Jurnalistlər konfederasiyasının üzvü, "Kamil sənətkar", "Qızıl qələm", "Zərdabi", " Araz" mükafatlarına sahib, "Oqonyok" jurnalının laureatı, Amerika Biblioqrafiya İnstitutunun Direktorlar Şurasının tərtib etdiyi "Dünyanın 1000 nüfuzlü şəxsi" adlı biblioqrafik sorğu kitabında jurnalistika üzrə Azərbaycanı təmsil edən Vasif Səmədov şərəfli bir ömür yolu keçib.

* * * * *







Hələ məktəbdə oxuduğu vaxtda 1965-1968-ci illərdə Masallıda çıxan "Çağırış" qəzetində çıxış edib. Orta təhsilini başa vurduqdan sonra Bakıya gəlib, "Azərbaycan pioneri"qəzeti ilə əməkdaşlıq edib, qəzetin keçirdiyi müsabiqədə mükafat qazanıb. 1968-1969-cu illərdə "Azərbaycan pioneri" və "Azərbaycan gəncləri" qəzetlərində mütəmadi yazıları dərc edilib. 1969-cu ilin yanvar ayında Azərbaycan Dövlət Radio və Televiziya Verilişləri Komitəsində redaktor vəzifəsinə təyin edilib. Elə həmin ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinin qiyabi şöbəsinə qəbul olub. ***1972-1974-cü illərdə hərbi xidməti başa vurduqdan sonra Azərbaycan KP MK-nin Siyasi Maarif Evində işləyib. 1977-ci ildə universiteti müvəffəqiyyətlə bitirib. 1977-1984-cü illərdə Ukraynanın Dnepropetrovsk vilayətində partiya, komsomol və təsərrüfat işlərində fəaliyyət göstərib. 1984-cü ildə Bakıya qayıdan Vasif Səmədov Azərbaycan KP MK-nin Marksizim-Leninizm Universitetinin qiyabi şöbəsi üzrə dekan vəzifəsində çalışıb və müxtəlif mətbu orqanlarda çıxış edib.***

1986-cı ildən 1991-ci ilədək "Kommunist" qəzetində müxbir işləyib, aktual yazıları ilə geniş oxucu auditoriyasında tanınıb. 1991-ci ildən "İzvestiya" qəzetinin Azərvaycan Respublikası üzrə xüsusi müxbiri təyin edilib.

1994-1995-ci illərdə "Rossiyski fermer" qəzetinin, 1995-ci ildə isə "Oqonyok" jurnalının Azərbaycan, Türkiyə və İran dövlətləri üzrə xüsusi müxbiri olub. 1996-cı ildən jurnalın Mərkəzi, Qərbi

***Vasif Həzərxan oğlu Səmədov 1950-ci il yanvarın 22-də Masallıda anadan olub. Uşaqlıq və gənclik illərini Masallıda keçirmişdi. Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirib.***

Asiya ölkələri və Ukrayna Respublikası üzrə müxbir məntəqəsinin müdiri vəzifəsində fəaliyyət göstərib. Rusiyanın "Peremenı" Beynəlxalq Gənclik jurnalının baş redaktor müavini işləyib. 1999-cu ildə "Literaturnaya qazeta"nın Mərkəzi və Qərbi Asiya ölkələri üzrə müxbir bürosunun müdiri və xüsusi müxbiri təyin edilib. 2000-ci ildə Rusiyanın üç televiziya kanalı, on iki radio stansiyası, "Literaturnaya qazeta", "Kultura", "Rossiya" və bir neçə populyar mətbu orqanı bir holdinqdə birləşdirilib. Vasif Səmədovun rəhbərlik etdiyi müxbir bürosu həmin televiziya kanallarının, radio stansiyaların və mətbu orqanların Mərkəzi və Qərbi Asiya ölkələri üzrə nümayəndəliyinə çevrilib.

Azərbaycan jurnalistikasının görkəmli nümayəndəsi Vasif Səmədov bütün fəaliyyəti dövründə xalqımızın dünəni və bu günü haqqında həqiqəti, Azərbaycan elm və mədəniyyətinin uğurlarını, bu nailiyyətlərin qazanılmasında müstəsna xidmətləri olan həmvətənlərimizi dünyaya tanıtdırmış, ermənilərin apardığı məkrli siyasətə qarşı vətəndaş təəssubkeşliyi ilə mübarizə aparmış qələm adamıdır. Onun müxtəlif ölkələrin geniş oxucu kütlələrinə çatdırılmış, 20 Yanvar faciəsini təsvir edən ***"Müdaxilə", Azərbaycanın milli qəhrəmanlarının, müqəddəs şəhidlik zirvəsinə yüksələn vətən övladlarının həyat yolunu əks etdirən "Təki Vətən yaşasın", "Vətən üçün lazım gəlsə" kitablarının tarixi, siyasi, tərbiyəvi dəyəri olduqca böyükdür. "İzvestiya" qəzetinin səhifələrində çap olunan və sonra Azərbaycan və rus dillərində nəşr edilən "Müdaxilə", "Vtorjeniye"*** silsilə yazıları 20 yanvar həqiqətləri ilə yanaşı, ermənilərin əsassız ərazi iddialarını, planlı fitnəkarlıqlarını da beynəlxalq auditoriyaya geniş açıqlayıb.

"Oqonyok" jurnalının Azərbaycan, İran və Türkiyə üzrə xüsusi müxbiri kimi Vasif Səmədov Azərbaycan ətrafında informasiya blokadasının dağılması, müstəqil dövlətin daxili və xarici siyasətinin rusdilli, transmilli media vasitəsilə dünyaya çatdırılması işində fəaliyyətini daha da genişləndirdi. "Oqonyok" jurnalının və "Literaturnaya qazeta"nın xüsusi müxbiri olaraq Vasif Səmədov müstəqil Azərbaycan dövlətinin formalaşması və möhkəmlənməsi sahəsində uğurlarımızın və mövcud problemlərimizin, xüsusilə Qarabağ probleminin tarixi ədalət prinsipi əsasında həlli, ölkəmizin beynəlxalq nüfuzunun artırılması istiqamətində respublika rəhbərliyinin apardığı siyasətin düzgün, qərəzsiz işıqlandırılmasında öz prinsipiallığı və obyektivliyi ilə seçilib. O, öz yazıları ilə xalqının, ölkəsinin mənafeyinə xidmət edən vətəndaş mövqeyini, jurnalist obyektivliyini və fədakarlığını, yüksək intellekt və mədəniyyətini daim təsdiq edib, geniş oxucu kütləsinin rəğbətini, məhəbbətini qazanıb. Ermənilərin anti-Azərbaycan təbliğatının hökm sürdüyü bir vaxtda – 1996-cı ildə "Oqonyok" jurnalının bütöv bir nömrəsinin Azərbaycan Respublikasına, onun bu gününə və tarixinə, nailiyyətlərinin və problemlərinin təhlilinə həsr edilməsi, ən əsası Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və ərazisinin 20 faizinin işğal edilməsi, bu təcavüzün ağır nəticələri barədə materialların yer alması Vasif Səmədovun vətəndaş mövqeyinin bariz nümunəsi idi. Qeyd etmək lazımdır ki, "Oqonyok" jurnalının yüz illik tarixi ərzində bir nömrənin xüsusi buraxılışı, həm də postsovet məkanından olan bir respublikaya həsr olunması ilk təcrübə, tarixi hadisə idi. Ümummilli lider Heydər Əliyev bu tarixi hadisəni təqdimat mərasimində söylədiyi nitqdə qiymətləndirərək demişdi: ***"Bu, sadəcə olaraq, jurnalın bir nömrəsi deyil, Azərbaycan haqqında kitabdır, həm də çox yaxşı kitabdır".***

Ulu öndər, dünyaşöhrətli siyasətçi, dövlət xadimi Heydər Əliyevi prezidentliyi dövründə əksər xarici səfərlərdə müşayiət etmiş, ən mühüm hadisə və görüşlər zamanı onunla təmasda olmuş Vasif Səmədov Rusiya mətbuatında Azərbaycanın xarici siyasətinin salnaməsinin yaradılmasında müstəsna xidmət göstərib. Heydər Əliyevin fəaliyyəti kontekstində dövlətimizin xarici siyasətini, Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın dəyişməz mövqeyini beynəlxalq arenada işıqlandırıb.

Vasif müəllimi bir jurnalist kimi xalqa sevdirən onun vətənpərvərliyi, milli ləyaqəti idisə, hörmət və rəğbət doğuran isə fərdi xüsusiyyətləri, insani keyfiyyətləri idi. Vasif müəllim sədaqətli dost, qayğıkeş müəllim, nəfsinə sahib Allah adamı, sözübütöv, mərhəmətli, prinsipial, qayğıkeş, xeyirxah, qonaqpərvər insan idi.

Vasif Səmədov xalqa, Vətənə xidmət nümunəsidir. Müsahibələrinin birində demişdi: ***"...Ailə dəyərlərim həyatımda qazandığım ən böyük mükafatımdır. Əmək fəaliyyətimdə Ulu Tanrının nəsib etdiyi ən böyük mükafatım Heydər Əliyev kimi böyük bir şəxsiyyətlə ünsiyyət, xarici səfərlərdə onu müşayiət etmək, bütün bunları təmsil etdiyim transmilli mətbuatda işıqlandırmaq olub. Həyatda böyük mükafatım isə ailə dəyərlərimdir. Ailəmizin baş tələbi Allaha bəndəlik etmək, Vətənə, el-obaya xidmət göstərməkdir. Həyat yoldaşım, üç oğlumun anası Solmaz xanım həmişə mənə arxa-dayaq olub. Övladlarım arzularımı çiçəkləndiriblər, məni naümid qoymayıblar. Nəvələrim mənə babalıq sevinci bəxş ediblər. Mən ailəmlə fəxr edirəm. Yerdə qalanlara qiymət vermək isə ətrafdakıların işidir".***

Onun Azərbaycan xalqının mənəvi dəyərlərini, mental xüsusiyyətlərini ifadə edən yazıları elmi-fəlsəfi təhlil dərinliyi ilə seçilir. Müxtəlif səpkili məqalələri üçün Qarabağ problemi aparıcı mövzu olub. O, həmçinin "Leyla Əliyeva: "Xocalıya ədalət!" (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model)" üçcildliyi kimi dəyərli nəşrin həmmüəllifidir.

Vasif Səmədov jurnalistikada həm peşəkarlıq, həm də vətənpərvərlik örnəyi kimi yadda qalacaq. Mehriban və qayğıkeş ailə başçısı, peşəkar jurnalist, Vətəninin layiqli övladı, əsl vətəndaş, əziz dostum Vasifin əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq.

**Akademik**
**Ziyad SƏMƏDZADƏ**

# Mərkəzi Bank uçot dərəcəsini sabit saxlayıb

***Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin qərarı ilə uçot dərəcəsi 7.25%, faiz dəhlizinin aşağı həddi 6.25%, faiz dəhlizinin yuxarı həddi isə 8.25% səviyyəsində dəyişməz saxlanılıb.***

Bu barədə Trend AMB-yə istinadən xəbər verir. Məlumata görə, uçot dərəcəsinin dəyişməz saxlanılması ilə bağlı qərar faktiki və proqnozlaşdırılan inflyasiyanın hədəf daxilində (4±2%) olması, qlobal iqtisadi şərait, makroiqtisadi meyillərin təhlili və pul siyasətinin iqtisadiyyata ötürücülüyü nəzərə alınmaqla qəbul olunub.

***"Ötən iclasdan bəri illik inflyasiya hədəf diapazonu (4±2%) daxilində qalıb. Belə ki, 2024-cü ilin dekabr ayında 12 aylıq inflyasiya 4.9% olub. İllik qiymət artımı ərzaq malları üzrə 5.5%, qeyri-ərzaq malları üzrə 2.4%, xidmətlər üzrə 6.3% təşkil edib. İllik baza inflyasiya 4.4% olub.***

***İnflyasiyaya təsir edən xarici amillər son aylar ümumilikdə stabildir. Beynəlxalq Valyuta Fondunun məlumatına görə ötən il qlobal əmtəə qiymətləri indeksi 4.3% artıb. Bu dövrdə ticarət tərəfdaşlarının orta çəkili illik inflyasiyası azalaraq 2024-cü ilin 11 ayında 11.9% enmişdir ki, bunun da əhəmiyyətli hissəsi manatın nominal effektiv məzənnəsinin 9% möhkəmlənməsi hesabına neytrallaşmışdır".***

"Xarici sektor göstəriciləri də əlverişli olaraq qalır. Dövlət Gömrük Komitəsinin məlumatına görə 2024-cü ildə tədiyə balansının cari əməliyyatlar hesabının başlıca komponenti olan xarici ticarət balansında 5.5 mlrd. ABŞ dolları məbləğində müsbət saldo qeydə alınıb. Bu şəraitdə 2024-cü ildə valyuta bazarında sabitlik qorunub, Mərkəzi Bankın keçirdiyi bütün hərraclarda valyutaya tələb tam qarşılanıb. 2024-cü ilin sonuna Mərkəzi Bankın valyuta ehtiyatları 11 mlrd. ABŞ dolları təşkil etmişdir. Cari əməliyyatlar hesabında proqnozlaşdırılan profisit (5.5 mlrd. ABŞ dolları) 2025-ci ildə də valyuta bazarında sabitliyin təmin ediləcəyini gözləməyə əsas verir", - məlumatda bildirilib. Qeyd olunub ki, pul siyasəti alətləri maliyyə bazarlarında gedən proseslər və bank sisteminin likvidlik mövqeyindəki dəyişikliklər nəzərə alınmaqla tətbiq edilir.

Ötən iclasdan bəri inflyasiyanın risk balansında əhəmiyyətli dəyişikliklər baş verməyib. Potensial olaraq inflyasiya təzyiqləri yarada biləcək qlobal risklərə mövcud geosiyasi gərginlik fonunda beynəlxalq əmtəə bazarlarında qiymətlərin mümkün dəyişkənliyi aiddir. İnflyasiyanı artıra biləcək daxili risk faktorlarına isə xərc amillərinin aktivləşməsi və məcmu tələbin izafi artımı aiddir. Məcmu tələbin izafi artımı büdcə xərclərinin və kredit qoyuluşlarının genişlənməsi vasitəsilə baş verə bilər. Qiymətləndirməyə görə dövlət büdcəsi xərclərinin və istehlak kreditlərinin inflyasiyaya toplam artırıcı təsirinin 2025-ci ildə 1 faiz bəndindən az olacağı gözlənilir. Bu səbəbdən, mövcud monetar şəraitin qalacağı halda qeyd olunan tələb amillərinə görə inflyasiyanın hədəf diapazonundan yayınması ehtimal olunmur".

"Ümumilikdə, mövcud monetar siyasət inflyasiyanın hədəf diapazonu daxilində saxlanılmasına və inflyasiya gözləntilərinin sabitləşməsinə yönəlib. Mövcud siyasət çərçivəsində baza ssenari üzrə 2025-ci və 2026-cı ildə illik inflyasiyanın hədəf daxilində (4±2%) olacağı proqnozlaşdırılır. Belə ki, 2025-ci ilin yanvar ayında yenilənmiş proqnozlara görə illik inflyasiyanın cari ildə 5.5%, 2026-cı ildə 3.8% ətrafında olacağı gözlənilir.

Faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərarlar faktiki və proqnozlaşdırılan inflyasiya, xarici və daxili risk amillərinin dinamikasından asılı olacaqdır. Mərkəzi Bank qanunvericiliklə müəyyən olunmuş mandatına uyğun olaraq qiymət sabitliyini təmin etmək üçün sərəncamındakı bütün vasitələrdən istifadə edəcəkdir. İnflyasiya təzyiqlərinin azalacağı və inflyasiya gözləntilərinin sabit qalacağı təqdirdə faiz dəhlizi parametrlərinin azaldılması imkanları nəzərdən keçirilə bilər. Bununla yanaşı, Mərkəzi Bank inflyasiya hədəfinə nail olunması ilə bağlı mümkün risklərin reallaşması halında müvafiq şəkildə reaksiya verəcəkdir.

Faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərar barədə məlumat 2025-ci il mart ayının 12-də ictimaiyyətə açıqlanacaq", - deyə məlumatda qeyd olunub.

# Bu il Azərbaycan iqtisadiyyatında 3,3 faiz artım proqnozlaşdırılır




"Bizim 2025-ci il ilə bağlı proqnozlarımız nikbindir. Bu il Azərbaycan iqtisadiyyatının artımı proqnozunun 3,3 faiz olacağı gözlənilir".

Bu barədə Mərkəzi Bankın sədri Taleh Kazımov faiz dəhlizinin parametrləri ilə bağlı keçirdiyi brifinqdə deyib.

O bildirib ki, qeyri-neft sektoru üzrə iqtisadi artım proqnozu bu il üzrə 5,2 faiz müəyyən edilib.

# Mərkəzi Bankın ehtiyatlarının həcmi açıqlanıb

***"Mərkəzi Bankın ehtiyatları 11 milyard ABŞ dolları təşkil edir. Ümumi strateji ehtiyatlarımız 3,5% artaraq 72 milyard dollar olub".***

Bunu yanvarın 22-də Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Taleh Kazımov faiz dəhlizinin parametrləri ilə bağlı keçirilən mətbuat konfransında deyib.

O qeyd edib ki, Azərbaycan Mərkəzi Bankının 2025-ci ildə proqnozlaşdırılan neftin orta qiyməti 77,3 dollar, təbii qazın orta qiyməti isə 349 dollardır.

# Bank sektorunda unikal əmanətçilərin sayı açıqlanıb

"2024-cü il ərzində Azərbaycan bank sektorunda unikal əmanətçilərin sayında 40%-dən çox artım qeydə alınıb".

Bunu Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Taleh Kazımov faiz dəhlizinin parametrləri ilə bağlı keçirilən mətbuat konfransında deyib.

Onun sözlərinə görə, Azərbaycan bank sektorunda unikal əmanətçilərin sayı 106 700 olub.

***"Bir il ərzində 43 600 əlavə unikal əmanətçilər qeydə alınıb. Onların da 77,7%-i 30 minədək olan əmanətçilərdir",*** - o bildirib.

# Naxçıvanda alternativ və bərpa olunan enerji istehsalının həcmi açıqlanıb



Ötən il Naxçıvan Muxtar Respublikasında alternativ və bərpa olunan enerji mənbələrində istehsal edilən elektrik enerjisinin həcmi açıqlanıb.

Naxçıvan Dövlət Energetika Xidmətindən Trend-in sorğusuna cavab olaraq bildirilib ki, hesabat dövrü ərzində alternativ və bərpa olunan enerji mənbələrində 235.909,206 kVt/saat elektrik enerjisi istehsal edilərək sistemə ötürülüb.

*"Bu, stansiyalar üzrə sistemə ötürülən ümumi enerjinin 48,7%-ni təşkil edir"*,- deyə məlumatda qeyd olunub.

# Biləv SES-in istehsal etdiyi elektrik enerjisinin həcmi açıqlanıb

Biləv Su Elektrik Stansiyasının son 5 ildə istehsal etdiyi elektrik enerjisinin həcmi məlum olub. Naxçıvan Dövlət Energetika Xidmətindən bildirilib ki, bu rəqəm 2020-2024 cü illər arasında müvafiq olaraq 42.915, 36.362, 24.088, 26.560 və 53.335 min kVt/saat olub.

Qeyd edək ki, stansiyanın tam güclə işləməsi üçün kanala 10,5 kub.m/san su ötürülməlidir. Bununla yanaşı, gələn suyun miqdarı 1 kub.m/san-dən az olduqda belə stansiyada elektrik enerjisi istehsal olunur. Stansiyada il ərzində 50 milyon kilovatsaat elektrik enerjisi istehsal edilməsi nəzərdə tutulub.

Biləv Su Elektrik Stansiyası Ordubad rayonu ərazisində Gilançay üzərində tikilib quraşdırılıb və 2010-cu ilin oktyabr ayının 5-də istismara verilib. Stansiyanın açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak edib.



# Azərbaycan "Liderlər Dairəsi: Enerji Keçidinin Maliyyələşdirilməsi - Yeni Üfüq" sessiyasında iştirak edib

Azərbaycan Davos İqtisadi Forumu çərçivəsində "Liderlər Dairəsi: Enerji Keçidinin Maliyyələşdirilməsi - Yeni Üfüq" sessiyasında iştirak edib.

Bu barədə iqtisadiyyat nazir Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında qeyd edib.

***"Biz "Liderlər Dairəsi: Enerji Keçidinin Maliyyələşdirilməsi - Yeni Üfüq" sessiyasında iştirak etdik. Uğurlu enerji transformasiyası** üçün mövcud imkanlar və əsas çağırışlar, enerji keçidinin maliyyələşdirilməsi barədə müzakirələr apardıq. Azərbaycanın dünyanın enerji təhlükəsizliyində və davamlı enerji təminatında etibarlı tərəfdaş olaraq fəal təşəbbüsləri, ədalətli yanaşma və "yaşıl enerji" keçidi strategiyası, həmçinin ölkəmizin ev sahibi olduğu COP29-da əldə edilən nəticələr barədə fikirlərimizi bölüşdük"*, - paylaşımda qeyd olunub.



# Su və istilik elektrik enerjisi istehsalının həcmi açıqlanıb



Ötən il Azərbaycanda su ilə işləyən stansiyalar 2,9 milyard kVt-saat elektrik enerjisi istehsal edib.

Bu barədə Trend Dövlət Statistika Komitəsindən məlumat əldə edib. Məlumata görə, bu, 2023-cü ildəki göstərici ilə müqayisədə 72,6% çoxdur.

Hesabat dövründə istilik elektrik stansiyalarında isə 22,3 milyard kVt-saat elektrik enerjisi istehsal olunub ki, bu da 2023-cü ilə nisbətən 2,5 milyard kVt-saat və ya 10,3% azdır.

Eyni zamanda, 2024-cü il ərzində ölkədə tullantıların yandırılmasından 201,6 milyon kVt-saat elektrik enerjisi istehsal olunub. Məlumata görə, bu, 2023-cü illə müqayisədə 5,6% çoxdur.

Qeyd edək ki, Azərbaycanda 2024-cü il ərzində 26,7 milyard kVt-saata yaxın elektrik enerjisi istehsal edilib ki, bu da bir il əvvələ nisbətən 8,7% azdır.

Ümumilikdə isə ölkədə elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 2024-cü ildə 1321,4 milyon manat dəyərində məhsul istehsal olunub və xidmətlər göstərilib.

# Azərbaycan-İran əlaqələrinin gələcək inkişaf pespektivləri müzakirə olunub

İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Birgə Dövlətlərarası Komissiyasının 16-cı iclasında iştirak etmək məqsədilə İranda səfərdə olan, Azərbaycan Respublikasının Baş nazirinin müavini, komissiyanın Azərbaycan tərəfindən həmsədri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan-İran əlaqələrinin mövcud vəziyyəti və gələcək inkişaf pespektivləri müzakirə olunub, o cümlədən iqtisadiyyat, nəqliyyat, energetika, ticarət, investisiya və humanitar sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi və həyata keçirilən birgə layihələrin önəmi vurğulanıb. Görüşdə, həmçinin regional və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.



# TRACECA: 2024-cü ildə maliyyə üzrə nəzarəti həyata keçirən audit qrupu Azərbaycan və Qazaxıstan nümayəndələrindən ibarət olub



TRACECA Hökumətlərarası Komissiyanın (HK) Daimi Katibliyinin (DK) maliyyə fəaliyyətinin auditi zamanı TRACECA HK Daimi Katibliyinin 2024-cü il büdcəsinin icrası ilə bağlı hesabatlılığının auditi və mühasibat uçotunun təşkili səviyyənin qiymətləndirilməsi həyata keçirilmişdir. 2024-cü ildə maliyyə üzrə yoxlama aparan audit qrupu Azərbaycan və Qazaxıstan nümayəndələrindən ibarət olub.

AZƏRTAC təşkilatın saytına istinadla xəbər verir ki, auditin yekunu üzrə Audit qrupunun üzvləri tərəfindən ekspert rəyindən, analitik rəydən, nəticələrdən, habelə büdcənin həm xərc hissəsi üzrə tövsiyələrdən, həm də ümumi xarakter daşıyan tövsiyələrdən ibarət hesabat imzalanıb. Həmin tövsiyələr TRACECA Hökumətlərarası Komissiyasının Tehranda keçiriləcək növbəti iclasında baxılmaq üçün təqdim olunacaq. Əvvəlki illərlə müqayisədə mühasibat uçotu sisteminin aparılması və avtomatlaşdırılması sahəsində müsbət meyillər və əhəmiyyətli təkmilləşdirmə qeyd edilmişdir.

# "ACWA Power" şirkəti ilə bərpa olunan enerji mənbələrinin payının artırılması müzakirə edilib

"ACWA Power" şirkəti ilə Azərbaycanın enerji ekosistemində bərpa olunan enerji mənbələrinin payının artırılması müzakirə edilib.

Bu barədə iqtisadiyyat nazir Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında qeyd edib.

"ACWA Power" şirkətinin baş icraçı direktoru Marko Arçelli ilə görüşməkdən məmnun olduq. Azərbaycanın enerji ekosistemində bərpa olunan enerji mənbələrinin payının artırılması, "ACWA Power" ilə reallaşdırılan təşəbbüslərin əhəmiyyəti və birgə həyata keçirilən layihələr barədə danışdıq", - paylaşımda qeyd olunub.



# "Yaşıl enerji" istehsalı iki dəfəyə yaxın artıb



Ötən il ərzində yaşıl enerji mənbələri üzrə elektrik enerjisi istehsalı 2023-cü ilə nisbətən 1 728,7 mln. kVt·st artaraq, 3 850,9 mln. kVt·st təşkil edib.

Bu barədə Trend-ə Energetika Nazirliyindən məlumat verilib. Qeyd olunub ki, 12 ay ərzində elektrik enerjisi istehsalı İES-lərdə 24 543,2 mln. kVt·st, SES-lərdə 3 011,0 mln. kVt·st, digər mənbələr üzrə isə 839,9 mln. kVt·st təşkil edib. Bu dövrdə külək elektrik stansiyalarında 51,1 mln. kVt·st, günəş elektrik stansiyalarında 556,3 mln. kVt·st, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 232,5 mln. kVt·st elektrik enerjisi istehsal edilib.

# Əsgəranda turizm kəndi salınacaq

Əsgəran Turizm kəndi və Qala parkı salınacaq. Trend-in əldə etdiyi məlumata görə, bununla bağlı baş plan-konsepsiya layihəsinin və Əsgəran Qala Parkının ilkin layihəsinin hazırlanması işləri start götürüb.

Belə ki, artıq Mədəniyyət Nazirliyinin tabeliyində təsərrüfat hesablı "Əsaslı Tikinti və Təchizat" Məhdud Məsuliyyətli Cəmiyyəti müvafiq işləri yekunlaşdırıb.

Qurum sözügedən işlərin icrasını "Artcloud Network Inernational" şirkətinə həvalə edib və müqavilə bağlayıb.

Müqaviləyə əsasən, şirkətə 942,8 min manat ödənilib.

# Президент COP29 рассказал о стратегии климатического финансирования на $1,3 трлн.

***"Мы уже подготовили программу, как увеличить взносы в климатическое финансирование до 1,3 триллиона долларов". Как сообщает Trend, об этом заявил министр экологии и природных ресурсов Азербайджана, президент COP29 Мухтар Бабаев, выступая на сессии Всемирного экономического форума (ВЭФ) на тему "Путь к COP30".***



В своем выступлении М.Бабаев подчеркнул значимость итогов COP29, особенно исторического соглашения о выделении 300 миллиардов долларов развивающимся странам. "Это большой успех для всего мира, для всего мирового сообщества", — отметил он. "Ранее не существовало ни одного документа или соглашения с твердыми намерениями и обязательствами стран внести вклад в климатическую повестку".

Министр также рассказал о следующем этапе прогресса, сосредоточив усилия на увеличении взносов до 1,3 триллиона долларов. ***"Мы подготовили программу, как увеличить взносы до 1,3 триллиона долларов и приглашаем МБР, частный сектор и другие заинтересованные стороны присоединиться к климатической повестке"***, - добавил Бабаев.

В преддверии COP30 Бабаев выразил оптимизм, отметив важность тесного сотрудничества с бразильской командой. "Мы планируем тесно сотрудничать с командой COP30, с бразильцами, чтобы поддержать их", — сказал он. ***"Да, есть новые вызовы, но есть и новые возможности. Давайте смотреть на это с оптимизмом и использовать эти шансы".***

# Микаил Джаббаров рассказал о вкладе Азербайджана в обеспечение глобальной энергобезопасности



В рамках участия в сессии «Круг лидеров: Финансирование энергетического перехода – новый горизонт» был представлен вклад Азербайджана в обеспечение глобальной энергобезопасности

Об этом на своей странице в социальной сети X написал министр экономики Азербайджана Микаил Джаббаров.

«Мы провели ценные обсуждения ключевых возможностей и вызовов для успешной энергетической трансформации, а также вопросов финансирования энергетического перехода. Кроме того, мы обменялись мнениями об активных инициативах Азербайджана в обеспечении глобальной энергетической безопасности и надежного энергоснабжения как доверенного партнера, приверженности справедливому подходу, продвижении стратегии перехода к «зеленой» энергии и достигнутых результатах на COP29, который был проведен в Азербайджане», - говорится в публикации.

# Стал известен объем инвестиций Азербайджана в Турцию

Азербайджан инвестировал в Турцию до настоящего периода более 20 миллиардов долларов.



Об этом сказал сегодня министр иностранных дел Азербайджана Джейхун Байрамов, выступая на совместной пресс-конференции с министром иностранных дел Турции Хаканом Фиданом в Баку.

«Сегодня у нас была возможность обменяться мнениями по всем направлениям - как на встрече один на один, так и в расширенном составе. В очередной раз с удовлетворением были отмечены достигнутые на сегодня успехи в экономической сфере. Успешно реализуется ряд проектов. Естественно, в их основе лежат отношения между двумя странами. Азербайджаном в Турцию за текущий период было инвестировано более 20 миллиардов долларов, турецкими компаниями в Азербайджан - более 16 миллиардов долларов.

# ЦБ Азербайджана оставил учетную ставку без изменений




Центральный банк Азербайджана (ЦБА) 22 января принял решение оставить учетную ставку без изменений на уровне 7,25 процента, сообщает в среду Trend.

Согласно информации ЦБА, верхний и нижний пределы процентного коридора также остались неизменными на уровне 8,25 процента и 6,25 процента соответственно.

"Решение о сохранении учетной ставки без изменений принято с учетом того, что фактическая и прогнозируемая инфляция находятся в пределах целевого коридора (4±2%), а также анализа глобальной экономической ситуации, макроэкономических тенденций и передачи воздействия денежно-кредитной политики на экономику", - говорится в публикации.

Отметим, что следующее решение ЦБ касательно учетной ставки будет опубликовано 12 марта.

# Пресс-бюллетень Посольства Беларуси в Азербайджане




Президентские выборы в Республике Беларусь вступают в решающую стадию: 21 января начинается досрочное голосование на избирательных участках страны. 26 января для граждан Беларуси – основной день голосования, итоги которого ЦИК Беларуси по законодательству должна установить не позднее 5 февраля.

Выборы – наиболее сложное комплексное мероприятие в сфере политических технологий и важнейшее среди регулярных в политической жизни любого современного государства.

Это всегда экзамен для действующего руководства страны по достигнутым результатам. И новые кандидаты на руководящую роль должны оценить себя – совпадают ли ожидания граждан с предлагаемыми ими путями дальнейшего развития государства.

А для граждан – это экзамен на политическую зрелость, позволяющую адекватно оценивать достижения и недоработки власти, трезво подходить к предвыборным обещаниям, не давая ввести себя в заблуждение по поводу фантастических, не имеющих шанса быть реализованными, ожиданий, вбрасываемых легковесными политиканами, «своими» и зарубежными «доброжелателями».

На должность Президента Беларуси в 2025 году претендуют 5 зарегистрированных кандидатов, включая действующего Главу государства А.Г.Лукашенко.

Выборы будут контролировать более 37 000 национальных наблюдателей.

На выборы в Беларусь приглашены и международные наблюдатели: ЦИК зарегистрировал 456 человек из 49 государств. Это представители стран СНГ, Европы, Азии и Африки, а также ряда структур СНГ, ОДКБ, ШОС, Движения неприсоединения, СВМДА. Была приглашена наблюдать и такая структура как БДИПЧ ОБСЕ, но отказалась со ссылкой на якобы поздно полученное приглашение из Минска.

Представители Милли Меджлиса и ЦИК Азербайджана также посетят Беларусь в качестве международных наблюдателей.

# TAP определил дорожную карту для подготовки к транспортировке водорода

Консорциум Трансадриатического трубопровода (TAP AG) определил дорожную карту для подготовки к транспортировке водорода, сообщили Trend в консорциуме TAP AG.

«Цель TAP - разработать инфраструктуру для транспортировки водорода. Мы определили дорожную карту для подготовки к среднесрочной и долгосрочной транспортировке смесей природного газа и водорода, а также возобновляемых газов. В 2021 году предварительное исследование подтвердило потенциал TAP для транспортировки водородных смесей в будущем. Сейчас мы проводим испытания материалов трубопровода в международной лаборатории. Результаты первых испытаний были получены в четвертом квартале 2024 года и в настоящее время находятся на стадии оценки. Следующие испытания уже начались, и их результаты ожидаются в 2025 году», — сообщил консорциум.

TAP AG отметил, что необходимые модификации могут быть определены только после полного анализа пригодности существующего трубопровода и другого оборудования.

«После завершения испытаний материалов потребуется их тщательная оценка. В дополнение к этому нужно будет оценить пригодность другого оборудования, необходимого для транспортировки водорода, и эти результаты нужно учитывать. Только после проведения всех проверок можно будет точнее определить готовность TAP к транспортировке водорода», — добавили в консорциуме.



Чрезвычайный и Полномочный Посол Республики Беларусь в Азербайджанской Республике Андрей Равков и сотрудники Посольства Беларуси вместе с аккредитованным в Азербайджане дипкорпусом возложили цветы на Аллее шехидов в Баку накануне Дня всенародной скорби - 35-й годовщины трагедии 20 января.

**Посольство Беларуси в Азербайджане**

# Трамп объявил о введении чрезвычайного положения в сфере энергетики

Президент США Дональд Трамп в понедельник заявил о введении чрезвычайного положения в сфере энергетики с целью увеличения добычи нефти и газа в стране.

Выступая с инаутурационной речью, Трамп отметил: "Кризис инфляции был вызван массовыми перерасходами и ростом цен на энергоносители, и именно поэтому сегодня я объявлю о введении чрезвычайного положения в энергосекторе. Мы будем бурить!" – подчеркнул он.

Кроме того, Трамп намерен активно использовать природные ресурсы Аляски и защитить газовое оборудование от федеральных ограничений, реализуя свои предвыборные обещания.

## Vida sözü

# Abdolbari Gozal



Azərbaycanın aparıcı qida istehsalçısı olan, "Azərsun Holdinq"in qurucusu və rəhbəri, xeyriyyəçi iş adamı Abdolbari Gozal vəfat edib.
Sahibkarlıq fəaliyyəti Ümummilli Lider Heydər Əliyev tərəfindən yüksək qiymətləndirilən Abdolbari Gozal, həmçinin Ulu Öndərin irsinin yaşadılması üçün həyata keçirilən bir çox layihələrin təşəbbüskarı olmuşdur.
Müasir Azərbaycanda özəl sektorun inkişafına mühüm töhfələr verən Abdolbari Gozal 20 il öncə, iş adamları arasında ilk dəfə Azərbaycan Prezidenti tərəfindən "Tərəqqi" medalı ilə təltif edilib. 2016-cı ildə Şirkətlər qrupunun rəhbəri "Şöhrət" ordeni ilə mükafatlandırılıb.
Prezident İlham Əliyevin 2024-cü il 2 fevral tarixli, 4289 nömrəli Sərəncamı ilə Azərbaycanın "Azərsun Holdinq"in qurucusu və Müşahidə Şurasının sədri Abdolbari Gozal "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı ilə təltif olunub.
Abdolbari Gozal "Azersun Holding"i 1997-ci ildə yaradıb. O, həm də "Qarabağ" futbol klubunun fəxri prezidenti idi.
Türk dünyasının layiqli övladı, gözəl insan, əziz Dostum Abdolbari Gozalın vəfatından kədərlənir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirəm.

**Allah rəhmət eləsin!**

**Akademik Ziyad Səmədzadə**

## Dünya

# Donald Tramp ABŞ-nin yeni prezidenti qismində and içib



ABŞ-nin paytaxtı Vaşinqtondakı Kapitoli binasında yeni seçilmiş prezident Donald Trampın inaqurasiya mərasimi keçirilib.
Andiçmə mərasimi ilə ABŞ-də rəsmi olaraq idarəçilik Bayden administrasiyasından Tramp administrasiyasına keçir.
Mərasimin keçirildiyi Kapitoli binasının rotondasında 800-ə yaxın qonaq iştirak edib. Həmçinin Kapitolinin həyətində yerləşən müxtəlif binalarda iştirak edən qonaqlarla birlikdə mərasimə 2600-ə yaxın qonaq qatılıb. Əvvəlcə yeni seçilmiş vitse-prezident David Ceyms Vens, daha sonra yeni seçilmiş prezident Donald Tramp and içiblər. Ardınca Tramp çıxış edib.
Tramp andiçmə mərasimində Avraam Linkolnun 1861-ci ildə andiçmə zamanı istifadə etdiyi İncildən istifadə edib. O, eyni zamanda, 2017-ci ildə and içdiyi öz şəxsi İncilindən də istifadə edib. Andiçməni ABŞ-nin Baş hakimi Con Roberts qəbul edib.
İnaqurasiya mərasimində ABŞ-ın keçmiş prezidentləri Barak Obama, Corc Buş və Bill Klinton da iştirak ediblər. Həmçinin amerikalı milyarderlər Mark Zukerberq, İlon Mask və Ceff Bezos da mərasimi ön sıradan izləyənlər arasında olub.

# "Amerikanın qızıl dövrü başlayır"



"Elə indi Amerikanın qızıl dövrü başlayır".
Bunu and içdikdən sonra ABŞ Prezidenti Donald Tramp deyib.
Donald Tramp bildirib ki, o, 47-ci prezident kimi milli uğurun həyəcanverici yeni dövrünün başlanğıcında olduqlarına inanaraq nikbinliklə qayıdır.
O, açılış nitqi zamanı dəyişikliklər dalğasının ölkəni əhatə edəcəyini bildirib.

# "Apple" yenidən dünyanın ən dəyərli brendlərinə liderlik edir



Amerikanın "Apple" korporasiyası artıq ikinci ildir ki, dünyanın ən qiymətli brendi elan olunub.
Bu barədə "Brand Finance Global 500" illik tədqiqatında deyilir.
"Apple"ın brend dəyəri bir il ərzində 11 faiz artaraq 574,5 milyard dollara çatıb.
Reytinqdə ikinci yeri yenə 35 faiz (461,1 milyard dollara qədər) artım nümayiş etdirən "Microsoft", üçüncü yeri "Google" (+24 faiz, 413 milyard dollar), dördüncü yeri "Amazon" (+15 faiz, 356,4 milyard dollar) tutub. Ən qiymətli markalar onluğuna həmçinin "Samsung" (110,6 milyard dollar), "TikTok" (105,8 milyard dollar), "Facebook" (91,5 milyard dollar), "Nvidia" (87,9 milyard dollar) və Çinin "State Grid Corporation" (85 milyard dollar) daxildir. "Deutsche Telekom" ümumi reytinqdə 11-ci yeri tutaraq (+16 faiz, 85,3 milyard dollar) Avropanın ən bahalı brendi kimi tanınıb.
"Brand Finance"ın məlumatına görə, dünyanın 500 ən dəyərli brendinin ümumi dəyəri son bir ildə 10 faiz artaraq 9,5 trilyon dollara yaxın olub.
"Brand Finance"ın doqquzuncu illik araşdırması 41 ölkədən və 31 sənaye sektorundan 6 mindən çox brend haqqında məlumatları ehtiva edir. Sorğuda 175 mindən çox respondent iştirak edib.

# Arktika karbon qazı emissiyasının mənbəyinə çevrilir



Arktikanın tundra, tayqa və bataqlıq ərazilərinin üçdəbiri karbon emissiyalarının mənbəyinə çevrilib, çünki qlobal istiləşmə onun donmuş şimal hissələrində minlərlə illik karbon anbarını açır.
Minlərlə il ərzində Arktika ekosistemləri planetin dərin donmuş karbonu rolunu oynayaraq böyük miqdarda potensial emissiyaları əbədi donmuş ərazilərdə saxlaya bilib. Bununla belə, "Nature Climate Change" jurnalında dərc olunan yeni araşdırmaya görə, bölgədəki ekosistemlər temperatur yüksəldikcə atmosferə daha çox $CO_2$ buraxdıqları üçün getdikcə qlobal istiləşmə mənbəyinə çevrilir.
Təhlillərə görə, bölgənin 30 faizindən çoxu xalis karbon mənbəyi idi və meşə yanğınlarının emissiyaları nəzərə alındıqda, bu rəqəm 40 faizə yüksəlib.
"Woodwell" İqlim Tədqiqat Mərkəzində aparılan tədqiqatın həmmüəllifi və aparıcı tədqiqatçısı Syu Natali deyir: "Biz ilk dəfədir ki, tundra boyunca kumulyativ olaraq bu qədər geniş miqyasda dəyişikliyi görürük. Bu, olduqca böyük bir işdir".

# Mərkəzi Gömrük Hospitalında 20 Yanvar Ümumxalq Hüzn Gününə həsr edilmiş Anım tədbiri keçirilib







Mərkəzi Gömrük Hospitalında 20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. İlk öncə tədbirdə Azərbaycanın müstəqilliyi uğrunda canlarından keçmiş bütün şəhidlərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, tibb xidməti general-mayoru Ceyhun Məmmədov, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi Təcrübi və Tədris Mərkəzinin rəisi Rəşad Mahmudov, Mərkəzi Gömrük Hospitalının Rəisi-baş həkim, tibb xidməti polkovniki Bəxtiyar Musayev və Mərkəzi Gömrük Hospitalının rəis müavini, tibb xidməti mayoru Nahidə Mahmudova Azərbaycan Respublikasının müstəqilliyi uğrunda mübarizə tarixinə şərəf və qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 20 Yanvar 1990-cu il hadisələri zamanı keçmiş sovet ordusunun hərbi hissələrinin dinc əhaliyə qarşı törətdiyi misli görünməmiş qətliam barədə çıxış ediblər.
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov çıxışında bildirib ki, 35 il əvvəl 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda və respublikamızın müxtəlif bölgələrində baş verən hadisələr xalqımızın milli mübarizə tarixinin mühüm səhifələrindən biridir. C.Məmmədov qeyd edib ki, Ulu Öndər Heydər Əliyev 1990-cı il yanvarın 21-də Azərbaycan SSR-in Moskvadakı Daimi Nümayəndəliyinə gələrək keçirdiyi mətbuat konfransında xalqımıza qarşı törədilmiş bu qanlı cinayəti ifşa edərək, törədilən terroru kəskin şəkildə pisləmiş, əliyalın xalqa qarşı törədilən terrorun hüquqa, demokratiyaya və insanlığa zidd olduğunu bəyan etmişdir. Azərbaycan xalqına qarşı törədilən cinayətə, qanlı təcavüzə ilk etiraz səsini ucaldan Ulu Öndər Heydər Əliyev bütün siyasi fəaliyyəti dövründə 20 Yanvar şəhidlərinin xatirəsini əziz tutmuş və şəhid ailələrinə olan diqqət və qayğını dövlət siyasətinin prioritet istiqamətinə çevirmişdir. Bu gün ölkəmizdə Ulu Öndər Heydər Əliyevin yolunu uğurla davam etdirən Prezident İlham Əliyev də şəhidlərin xatirəsinin uca tutulmasına və şəhid ailələrinin sosial məsələlərinin həllinə xüsusi diqqət ayırır.
Tədbirdə Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi Təcrübi və Tədris Mərkəzinin rəisi, ürək-damar cərrahı Rəşad Mahmudov çıxış edərək bildirib ki, 35 il əvvəl 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet imperiyası əliyalın vətəndaşlarının üzərinə tanklarla və digər ağır texnikalarla hücuma keçib milli qırğın törətməklə hərbi qələbə qazansa da, bu hadisə ilə əslində məğlub oldu, Azərbaycanda özünün bütün siyasi, sosial və hüquqi dayaqlarını itirdi. Azərbaycan xalqının əzmini və iradəsini qırmaq isə mümkün olmadı. Məhz 20 Yanvar hadisəsindən sonra Azərbaycanın azadlığı və müstəqilliyi ideyası xalqımızın ümummilli amalına çevrildi və bu amal uğrunda mübarizə 1991-ci ildə dövlət müstəqilliyimizin bərpası ilə nəticələndi. Hər il yanvarın 20-də Azərbaycanın bütün ərazisində 20 Yanvar şəhidlərinin xatirəsi yad olunur, Azərbaycan dövləti və xalqı azadlığımızın və müstəqilliyimizin simvoluna çevrilən 20 Yanvar şəhidlərinin şücaətini daim yüksək qiymətləndirir, onların ruhuna ehtiram göstərir və xatirəsini hər zaman əziz tutur.
Mərkəzi Gömrük Hospitalının rəis müavini Nahidə Mahmudova çıxışında 1990-cı ilin qanlı 20 Yanvar hadisəsinin Azərbaycan xalqı üçün təkcə böyük faciə kimi deyil, eyni zamanda ləyaqətini qorumaq üçün hər cür qurban verməyə hazır olan xalqımızın şərəfli bir səhifəsi, milli azadlıq hərəkatımızın zirvəsi kimi Azərbaycan tarixinə həkk olunduğunu qeyd edib. Rəis müavini Nahidə Mahmudova 20 yanvar hadisələrinə hüquqi-siyasi qiymət verilməsinin əhəmiyyətini vurğularaq bildirib ki, ilk dəfə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində və 1994-cü il martın 29-da ali qanunvericilik orqanı – Milli Məclis səviyyəsində siyasi-hüquqi qiymət verən qərarlar qəbul edilmiş, faciənin günahkarları qeyd olunmuş və Azərbaycan xalqına qarşı totalitar kommunist rejimi tərəfindən törədilən hərbi təcavüz və cinayət kimi qiymətləndirilmişdi.
Həmçinin, N.Mahmudova qanlı yanvar hadisələri ilə bağlı statistik rəqəmlərə toxunub: "Sovet imperiyasının tanklardan və müxtəlif təyinatlı zirehli döyüş maşınlarından istifadə edərək törətdiyi bu hərbi əməliyyatlarda ümumilikdə 147 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuş, o cümlədən təcili yardım maşınları, dövlət əmlakı və şəxsi əmlaklar məhv edilmişdir. Həmin gecə həlak olan Vətən övladları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar".
Mərkəzi Gömrük Hospitalının Rəisi-baş həkim, tibb xidməti polkovniki Bəxtiyar Musayev 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun paytaxtın müxtəlif istiqamətlərindən şəhərə daxil olaraq dinc və günahsız insanları güllələboran etməsi, həmin gecə digər tibb işçiləri ilə bərabər vəzifə borclarını vicdanla yerinə yetirərək çox çətin şəraitdə yaralılara göstərdikləri yardım, yaralılar üzərində icra etdikləri əməliyyatlar, dəhşətli faciədən bir az öncə Azərbaycan Televiziyasının enerji blokunun partladılması və şahidi olduğu hadisələr barədə xatirələrini danışıb. Baş həkim Bəxtiyar Musayev qeyd edib ki, həmin gün uzun illər imperiya əsarəti altında yaşayan xalqımız azadlığına qovuşmaq üçün canından belə keçməyə hazır olduğunu bir daha bütün dünyaya nümayiş etdirdi. Bu gün bütün şəhidlərimizin ruhları şaddır.
Azərbaycan şanlı Zəfərə imza ataraq tarixi ədaləti bərpa etdi. Bu gün qalib, ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş Azərbaycanın uğurlarından bəhs edirik.
Tədbirin sonunda Mərkəzi Gömrük Hospitalının Təcili Yardım şöbəsinin tibb qardaşı, tibb xidməti giziri Vüsal Şahverdiyev görkəmli Azərbaycan şairi Bəxtiyar Vahabzadənin "Şəhidlər" şeirini səsləndirib və tədbir 20 Yanvar hadisələrindən bəhs edən bədii-sənədli filmin nümayişi ilə başa çatıb.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının**
**PR mütəxəssisi**

## ALLAH RƏHMƏT ELƏSİN

Professor Elşən Hacızadə Fərid İsmayılova qaynatası
**TOFİQ LƏTİFOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Qüdrət Kərimov, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**